Xalq qəzeti.-2021.- 11 noyabr.- S. 15

# Akademik Rafael Hüseynov Sankt-Peterburq Dövlət Universitetinin İslam Tədqiqatları Mərkəzinin direktoru ilə görüşüb

***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru, Sankt-Peterburq Dövlət Universitetinin İslam Tədqiqatları Mərkəzinin direktoru Damir Muxetdinov Azərbaycana səfəri çərçivəsində AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynovla görüşüb.***

Görüşdə Azərbaycan və Rusiya arasında elm və mədəniyyət sahələrində birgə praktik layihələrin işlənməsi məsələləri müzakirə edilib.

Əvvəlcə akademik Rafael Hüseynov qonağa muzeyin yaranması və inkişaf tarixi, burada aparılan elmi-tədqiqat işləri barədə məlumat verib. Bildirib ki, muzeydə iki istiqamət üzrə iş aparılır: “Bu mədəniyyət ocağı həm muzey kimi fəaliyyət göstərir, həm də burada muzeyşünaslıq, klassik və müasir ədəbiyyatşünaslıq və mədəniyyətşünaslığın müxtəlif istiqamətlərində elmi tədqiqatlar aparılır”.

Akademik R.Hüseynov muzeyin filiallarından biri kimi fəaliyyət göstərən Sergey Yesenin adına Rusiya-Azərbaycan Ədəbi Əlaqələri Mərkəzi haqqında da danışıb.

Damir Muxetdinov öz növbəsində bu il Azərbaycanda qeyd olunan “Nizami İli” çərçivəsində Nizami Muzeyində görüşün keçirilməsini əlamətdar hadisə kimi dəyərləndirib. Müxtəlif xalqların yaradıcılığını özündə ehtiva edən Rusiya mədəniyyət həyatında dahi Nizami və onunla əlaqəli əlamətdar tarixlərin xüsusi yer tutduğunu deyən qonaq bildirib ki, təkcə İkinci Dünya Müharibəsi zamanı blokada şəraitində olan Sankt-Peterburqda yerli alimlərin təşəbbüsü ilə Nizaminin 800 illik yubileyinin keçirilməsini qeyd etmək kifayət edir.

Sonda yaxın zamanlarda elmi-praktik və akademik əməkdaşlıq haqqında qarşılıqlı memorandumun imzalanması qərara alınıb.



**_Qabil YUSİFOĞLU,_**
**_“Xalq qəzeti”_**